QANUN № 02 (352), 2024, s. 166-170



**Bağiyeva Nuriyyə Natiq qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının "İnformasiya hüququ" ixtisası üzrə magistrantı
E-mail: bagiyevanur@gmail.com

**UOT 340.62:347.133.72**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.45**

# MƏİŞƏT ZORAKILIĞININ FORMALARI: MÜQAYİSƏLİ TƏHLİL

***Açar sözlər:*** *məişət zorakılığı, zorakılığın formaları, konfidensiallıq, şəxsi həyat sirri, ailə həyatı sirri.*

***Ключевые слова:*** *домашнее насилие, формы насилия, конфиденциальность, тайна частной жизни, тайна семейной жизни.*

***Keywords:*** *domestic violence, forms of violence, confidentiality, private life secret, family life secret.*

### 1.1. Ümumi yanaşma

Zorakılıq hər bir cəmiyyətdə, hər dövrdə, insan həyatının hər sahəsində mövcud olan və getdikcə artan ictimai sağlamlıq problemidir. Həmçinin zorakılıq kompleks bir problemdir və anlayışı da olduqca genişdir. Məsələn, zorakılıq fiziki və ya mənəvi ağrı və zərərə səbəb olan aqressiv davranışdır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) zorakılığa «ölüm, psixoloji ziyan və ya məhrum etmə ilə nəticələnən (yaxud son dərəcə yüksək ehtimalın olması) özünə, başqa bir şəxsə, bir qrupa və ya cəmiyyətə qarşı təhdidin və ya faktiki olaraq fiziki qüvvənin və ya gücün qəsdən istifadəsi» kimi tərif verir [15, s. 4].

Zorakılıq fenomeni istər real, istər potensial şiddətə məruz qalan insanların həyat keyfiyyətinə böyük ziyan vuran, yönəldiyi şəxsdən və qrupdan asılı olaraq müxtəlif mənfi təsirlər yaradan və bu gün demək olar ki, hər bir cəmiyyətdə onunla mübarizə aparılan ən böyük sosial problemlərdən biridir.

Sosial həyatda rast gəlinən zorakılıq formaları aşağıdakılardır [8, s. 235]:

1) Özünə yönəlmiş zorakılıq: intihar, bədənə zərər verən hərəkətlər;

2) Şəxslərarası zorakılıq: Qadınlara, uşaqlara, qocalara qarşı zorakılıq, tanışlıq zorakılığı, məişət zorakılığı;

3) Mütəşəkkil zorakılıq: Beynəlxalq zorakılıq, kollektiv zorakılıq, siyasi zorakılıq, güc zorakılığı, gücə qarşı zorakılıq;

4) Media zorakılığı: Yazılı və vizual mediada zorakı görüntülər, səslər və yazı vasitəsilə zorakılıq;

5) Zorakılığın digər formaları: dəstə zorakılığı, qan davaları, küçə zorakılığı, insan və orqan alveri, pornoqrafiya, homoseksuallara və lezbiyanlara qarşı zorakılıq, azlıqlara qarşı zorakılıq, məktəbdə və idman tədbirlərində zorakılıq.

Bunlar arasında ən çox rast gəlinən zorakılıq növü məişət zorakılığı, habelə qadınlara qarşı zorakılıqdır. Zorakılıq sözünün mənası «hücum etmək» deməkdir.

"Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna əsasən, məişət zorakılığı yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə et-

məklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır. Qanunun şamil edildiyi şəxslərə daxildir (maddə 4);




Lakin zorakılıq təkcə bunlarla məhdudlaşmır. Qadınlara qarşı zorakılıq cinsə əsaslanan, qadınları incidən, onlara zərər verən, fiziki, cinsi, mənəvi zərərlə nəticələnə bilən, ictimai və ya şəxsi həyatda onun təzyiqlərə məruz qalmasına və azadlıqlarının özbaşına məhdudlaşdırılmasına səbəb olan hər hansı davranışdır [3, s. 144].

1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən qəbul edilmiş "Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında" Bəyannamədə qadınlara qarşı zorakılıq, "Cinsə əsaslanaraq baş verən, qadınlarda fiziki, cinsi və ya psixoloji zərər və ya narahatlığa səbəb olan və ya bu səbəbin olması üçün nəzərdə tutulan şəxsi və ya ictimai həyatda baş verə biləcək hər hansı davranış, təhdid, təzyiq və ya azadlığa ixtiyari maneə" kimi müəyyən edilir [14]. 1994-cü ildə BMT tərəfindən qəbul edilən Qadınlar üzrə 4-cü Ümumdünya Konfransının Fəaliyyət Platforması və Pekin Bəyannaməsində isə qadınlara qarşı zorakılıq "Qadınlara fiziki, cinsi və ya psixoloji zərər və ya iztirab ilə nəticələnən və ya nəticələnəcəyi ehtimal olunan bu cür hərəkətlərlə hədələmə, məcburiyyət və ya özbaşına məhrumetmə təhlükəsi ilə bağlı ictimai və ya şəxsi həyatda baş verən gender əsaslı zorakılığın bütün formaları" kimi müəyyən edilir [13, s. 185]. Digər tərəfdən bu Bəyannamədə qadınlara qarşı şiddətə ailə daxilində baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən döyülmə, evdə qızlara qarşı cinsi istismar, cehizlə bağlı zorakılıq, nikahda zorlama və digər ənənəvi təcrübələr, nikahdan kənar zorakılıq və sui-istifadə ilə bağlı zorakılıq; zorlama, cinsi təcavüz, iş yeri, təhsil, ictimai yerlərdə, o cümlədən müəssisələrdə və başqa yerlərdə təcavüz və cinsi zorakılıq, fiziki, cinsi və psixoloji zorakılıq, qadınların alqı-satqısı, məcburi hamiləlik, məcburi sterilizasiya və məcburi abort və s. daxildir.

Məişət zorakılığının ümumi və dəyişməz xüsusiyyətlərinə həmçinin məişət zorakılığı törədənlər və qurbanlar arasında nikah yolu ilə qohumluq əlaqəsinin olması, nikah şəhadətnaməsinin məişət zorakılığına icazə verən sənəd kimi görülməsi, təcavüzkarlar və qurbanların ailə həyatının toxunulmazlığını qorumaq üçün zorakılığı cəmiyyətdən gizlətmələri və bununla məişət zorakılığını aşkar etmək çətinləşməsi, məişət zorakılığı törədənlərin və qurbanlarının adətən eyni evdə yaşaması halları aid edilir [2, s. 19].

Qadınlara qarşı zorakılıq tətbiq olunma üsulundan asılı olaraq fiziki zorakılıq, şifahi zorakılıq, psixoloji zorakılıq, iqtisadi zorakılıq və cinsi zorakılıq kimi kateqoriyalara bölünür.

### 1.2. Fiziki zorakılıq

Fiziki zorakılıq hədə-qorxu, hədələmə və sanksiya vasitəsi kimi kobud gücdən istifadəni nəzərdə tutur. Fiziki zorakılıq: itələmək, vurmaq, dişləmək, boğmağa çalışmaq, təpikləmək, yumruqlamaq, əşyalar atmaq, fiziki güc tətbiq edərək onların evdən çıxmasına və ya evə girməsinə mane olmaq, bıçaq və ya silah kimi alətlərlə

hədələmək, döyülmə, işgəncə və s. kimi fiziki qüvvənin tətbiq edildiyi vəziyyətləri əhatə edir [11, s. 50].

Fiziki zorakılıq fiziki və ya güc tətbiq etməklə başqa bir şəxsə zərər vurmaq və ya istəmədiyi hərəkəti etməyə məcbur etmək deməkdir. Keçmiş həyat yoldaşı tərəfindən zorakılıq, itələnmək, təpiklənmək, döyülmək, iti əşyalar, odlu silah və ya kimyəvi maddələrdən istifadə etməklə yaralanmaq, sümüyünün qırılması, hamiləlik zamanı döyülmə, orqanların zədələnməsi, namus qətlləri və s. [10, s. 19] Azərbaycanda ailədaxili fiziki zorakılığın ən geniş yayılmış növlərindən bəziləridir.

Namus cinayətlərində qadın və ya gənc qızın ailəsinin iradəsinə zidd olaraq emosional münasibət yaşamaq, nikahdankənar bakirəliyini itirmək və ya qeyri-qanuni uşaq dünyaya gətirmək kimi səbəblərdən onları ataları, qardaşları, həyat yoldaşları və hətta keçmiş həyat yoldaşları öldürə bilirlər. Müəyyən situasiyalarda qadının geyimi, tanımadığı adamlarla ünsiyyəti, ailəsinin istədiyi adamla evlənmək istəməməsi, ailənin istəyinə zidd olaraq ərindən boşanması kimi səbəblər də namus cinayətlərinə bəhanə ola bilir. Bu mənada namus cinayəti qız uşaqlarının və ya qadınların, ailənin və ya sosial mühitin hökmranlığı, adət-ənənələri ilə müəyyən edilən ailə şərəfinin pozulduğu və buna görə də ailə namusunu ləkələməsi və ailə və ya kişi üçün utanc mənbəyi olması səbəbi ilə ailə məclisinin və ya kişinin şəxsi qərarı ilə öldürülməsidir [12, s. 337].

### 1.3. Psixoloji zorakılıq

Fərdin mənlik hissini aradan qaldırmağa və ya ən azı yaralamağa yönəlmiş bütün hücumlara psixoloji zorakılıq daxildir. Psixoloji zorakılıq bir insanın bir və ya bir neçə nəfər tərəfindən hədəfə alınması ilə başlayan, hər gün və aylar ərzində mütəmadi olaraq həmin şəxsə hücum edərək onu köməyə möhtac edən bir proses olaraq da müəyyən edilə bilər. Psixoloji zorakılıq sevgi, şəfqət, diqqət və bəyənmə kimi hiss və psixoloji ehtiyacları görməməzlikdən gəlmək, həyat yoldaşı ilə birbaşa ünsiyyətdən imtina etmək, onunla danışmamaq, acıqlı olmaq, eyhamla danışaraq anlaşılmazlıqlara səbəb olmaq, hədə-qorxu gəlmək, ailəsini, qohumlarını, dostlarını və ya digər insanları görməsinə icazə verməmək, onu evinə qapamaq, irqinin, dilinin, mədəni qrupunun və ya keçmişinin dəyər və inanclarını alçaltmaq, əksinə yaşamağa məcbur etmək, bu inanclara, sosial mühitə müdaxilə etmək, onu cəmiyyətdə xorlamaq, qısqanclıq bəhanəsi ilə onu daim nəzarətdə saxlamaq, qadınları başqa qadınlarla müqayisə etmək, qadınlara necə geyinmək, hara getmək, kiminlə görüşmək barədə azadlıqlarını əllərindən almaq, qadınları uşaqlarından uzaqlaşdırmaq, qadınların ailə üzvlərini daim alçaltmaq, maddi dəstək ala biləcəkləri müəssisələrdən təcrid etmək, evdən qovmaq və ya qovmaqla hədələməklə təzyiq göstərmək şəklində baş verir [4, s. 81]. Avropa Şurasının Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında Konvensiyası psixoloji zorakılığı "şəxsin psixoloji bütövlüyünü zor və ya hədə-qorxu ilə ciddi şəkildə pozmağa qəsdən cəhdlər" kimi müəyyən edir [7, s. 149].

### 1.4. İqtisadi zorakılıq

İqtisadi zorakılıq iqtisadi resurslardan və puldan qadınlara sanksiya, təhdid və nəzarət vasitəsi kimi istifadəni ifadə edir. Bu cür zorakılıq gender bərabərsizliyi və kişi və qadınlar arasında qeyri-bərabər güc münasibətləri nəticəsində yaranır [5, s. 545]. Qadının işlə və ya peşə ilə məşğul olmasına mane olma, kişinin qadının iqtisadi gəlirini müsadirə etməsi, qazandığı gəlirin cüzi miqdarda verilməsi və qadının ondan razı qalmasını gözləməsi, qane olmadıqda zorakılıq tətbiq etməsi, birgə qazancla əldə olunmuş daşınmaz əmlakın dövlət reyestrindən çıxarışının özəlləşdirilməsi, evin xərclərini ödəməmək, ailə üzvlərinə lazımi müavinəti ödəməmək, həyat

yoldaşının işləməsinə icazə verməmək, pulun hara xərclənməsinə nəzarət etmək, biznesdə irəliləyişin qarşısını almaq, mal və pulu əlindən almaq, satın alma hüququna mane olmaq, gəliri olmayan və ya kifayət qədər gəliri olmayan qadının ehtiyaclarını ödəmək üçün lazım olan pulu verməmək, xərclərini nəzarətdə saxlamaq və qadınlardan mənfəət əldə etmək müqabilində onlara pul vermək kimi əməllər iqtisadi şiddət hesab olunur. [9, s. 52]. Bundan əlavə, ailənin əmanətləri, gəlir və xərcləri barədə məlumatların verilməməsi, qadının işlədiyi halda onun iş həyatına mənfi təsir edəcək məhdudiyyətlərin qoyulması, ailəni narahat edən iqtisadi məsələlərdə onun fikrini soruşmadan təkbaşına həll edilməsi də bu sıraya daxildir.

### 1.5. Cinsi zorakılıq

Cinsi zorakılığa qadının iradəsinə zidd cinsi əlaqə, zorlama, şifahi və faktiki qısnama daxildir və xüsusilə şərəf və ləyaqət kimi anlayışların müəyyən edildiyi cəmiyyətlərdə baş verməsi çətin olan zorakılıq növüdür [6, s. 39].

Cinsi zorakılığa qadını istəmədiyi yerdə, istəmədiyi vaxtda, istəmədiyi üsullarla zorlama, hətta evli olduğu şəxs olsa belə, cinsi əlaqəyə məcbur etmək, qadına cinsi obyekt kimi baxmaq, həddən artıq qısqanclıq və şübhə göstərmək, eyhamlar etmək, cinsi məzmunlu sözlər söyləmək, onu uşaq dünyaya gətirməyə və ya gətirməməyə məcbur etmək, abort, insest, fahişəlik, zorla evlənmək, cinsi əlaqədən cəza üsulu kimi istifadə etmək, açıq şəkildə başqa qadınlara maraq göstərmək, qadını aldatmaq, kobud güc tətbiq etməklə cinsi əlaqəyə məcbur etmək, emosional güc tətbiq etməklə cinsi əlaqəyə girmək kimi hərəkətlər daxildir. Avropa Şurasının "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında Konvensiyasın"da cinsi zorakılıq "qarşı tərəfin razılığı olmadan onunla vaginal, anal və ya oral (qeyri təbii yolla) yoldan cinsi əlaqəyə girmək, qarşı tərəfin razılığı olmadan ona qarşı seksual xarakterli zorakılıq hərəkətləri etmək, digər bir şəxsi üçüncü tərəfə qarşı həmin şəxsin razılığı olmadan seksual xarakterli zorakılıq hərəkətləri etməyə sövq etmək" kimi müəyyən edilir. Azərbaycan Respublikasının qanunvericiliyində şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər üçün məsuliyyət nəzərdə tutulmuşdur [1].

### 1.6. Nəticə

Qadınlara qarşı zorakılıq növləri dünyanın müxtəlif yerlərində müxtəlif dərəcələrdə baş verir. Qadınlara qarşı zorakılığın dərəcələri, yayılması və tezliyi ilə bağlı həm Azərbaycanda, həm də xaricdə bir çox araşdırmalar aparılıb və hansı zorakılıq növlərinin daha çox olduğu müəyyən edilib. Bu araşdırmalar arasında ölkə daxilində aparılan mühüm tədqiqatlarla yanaşı, beynəlxalq səviyyədə aparılan araşdırmalar da vardır. Bütün bu araşdırmalar bir daha sübut edir ki, zorakılığın heç də hər zaman konkret bir formasına üstünlük verilmir. Zorakılığın bütün formaları qanunpozucuları tərəfindən tətbiq edilir ki, onların hamısına qarşı mübarizə tədbirləri aparılmalıdır.

**İstifadə edilmiş mənbələr:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsi // 30 dekabr 1999-cu ildə qəbul edilmişdir, № 787-IQ (23 fevral 2024-cü il tarixdə olan dəyişikliklər): [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46947

2. Celalettin Vatandaş. Aile ve Şiddet: Türkiye'de Eşler Arası Şiddet. – Ankara: Afyon Kocatepe Üniversitesi, – 2003. – 186 s.

3. Dilek Yetim, Erkan Melih Şahin. Aile Hekimliğinde Kadına Yönelik Şiddete Yaklaşım // Aile Hekimlği Dergisi, – 2009, s. 2(2). – 142-148 s.

4. Dr. Mehmet Ali Uçar. Aile İçi Şiddet ve Aile Koruma Yasası. – Ankara: Yetkin Yayınevi, – 2003. – 215 s.: [Elektronik kaynak] /URL: http://www.manevisosyalhizmet.com/wpcontent/uploads/2009/09/kadina_yonelik_siddete_yaklasim.pdf

5. Gizem Özkan. Kadına Yönelik Şiddet-Aile İçi Şiddet ve Konuya İlişkin Uluslararası Metinler Üzerine Bir İnceleme // Hacettepe Hukuk Fakültesi Dergisi, – 2017, № 7(1). – 533-564 s.
6. İbrahim Akkaş, Zeki Uyanık. Kadına Yönelik Şiddet // Nevşehir Hacı Bektaş Veli Üniversitesi, SBE Dergisi, – 2016, № 6 (1). – 32-42 s.
7. Istanbul Sözleşmesi // Ankara Barosu Dergisi, – 2011, – 133-204 s.
8. Nüket Subaşı, Ayşe Akın. Kadına Yönelik Şiddetin Nedenleri ve Sonuçları // Hacettepe Üniversitesi Yayınları, Ankara, –2003. – 231-247 s. http://www.huksam.hacettepe.edu.tr/Turkce/SayfaDosya/kadina_yon_siddet.pdf
9. Özge Bölükbaşı. 6284 Sayılı Ailenin Korunması ve Kadına Karşı Şiddetin Önlenmesine Dair Kanun Kapsamında Kadının ve Aile Bireylerinin Korunması. Ankara: Yetkin Yayınları, 2015, 206 s.
10. Songül Sallan Gül. Türkiyede Kadın Sığınmaevleri Erkek Şiddetinden Uzak Yaşama Açılan Kapılar mı?. İstanbul: Bağlam Yayınları, 2. Baskı, – 2013. – 278 s.
11. Yetim, Dilek/Şahin, Erkan Melih. Aile Hekimliğinde Kadına Yönelik Şiddete Yaklaşım // Aile Hekimliği Dergisi, 2009, 2(2), – 48-53 s.
12. Zeynep Burcu Akbaba. Töre, Namus ve tore Saikiyle Kasten Öldürme // TBB Dergisi, –2008, Sayı75, – 333-351 s.
13. The United Nations Fourth World Conference on Women, Beijing: – 1995, – 223 s.: [Elektronik kaynak] /URL: http://www.un.org/womenwatch/daw/beijing/platform/violence.htm
14. United Nations General Assembly. Declaration on the Elimination of Violence against Women, 1993.: [Elektronik kaynak] /URL: http://www.un.org/documents/ga/res/48/a48r104.htm
15. World Health Organization. World Report On Violence and Health. Ceneva: Summary, – 2002, – 360 s.: [Elektronik kaynak] /URL: http://apps.who.int/iris/bitstream/10665/42512/1/9241545623_eng.pdf?ua=1

**Багиева Нурия Натиг гызы**

**ФОРМЫ ДОМАШНЕГО НАСИЛИЯ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ**

**РЕЗЮМЕ**

Домашнее насилие, являющееся одной из актуальных проблем современности, и его различные формы стоят на повестке дня всех стран мира. Хотя насилие всегда подразумевает сексуальное и физическое насилие, существует множество форм насилия, оказывающих негативное воздействие на человека. В статье подробно анализируются виды насилия (такие как экономическое насилие, физическое насилие, сексуальное насилие, психологическое насилие), выдвигаются предложения и рекомендации.

**Bagiyeva Nuriyya Natiq**

**FORMS OF DOMESTIC VIOLENCE: A COMPARATIVE ANALYSIS**

**SUMMARY**

Domestic violence, which is one of the urgent problems of our time, and its various forms are on the agenda of all countries of the world. Although violence always means sexual and physical violence, there are many forms of violence that have a negative impact on a person. The article gives analysis of the types of violence (such as economic violence, physical violence, sexual violence, psychological violence) in detail, making certain suggestions and recommendations.

**Redaksiyaya daxilolma tarixi: 01.02.2024**
**Təkrar ıuələnməyə gundərilmə tarixi: 09.02.2024**
**Çapa qəbul olunma tarixi: 12.02.2024**